# İstedadlı həkim, novator alim

**Atasının arzusu idi - oğlu Cəlal həkimliyin zirvəsinə yüksəlsin, alim olsun. Arzular çin olanda insanlar özlərini qəlbən rahat hiss edir.**

Füzuli şəhərində həkim ailəsində dünyaya göz açmış Cəlal orta məktəbi bitirdikdən sonra atasının arzusu ilə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ADTU) müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Təhsil müddətində Respublika dəri-zöhrəvi dispanserində çalışmışdır.

Cəlal müəllimin dermatologiya elminin sirlərinə dərindən yiyələnmək arzusu onu Moskva Dəri-zöhrəvi Elmi-Tədqiqat İnstitutuna gətirmiş və burada aspiranturaya daxil olmuşdur. O, burada "İmmunoloji göstəricilərin dinamikası nəzərə alınmaqla ekzemalı və neyrodermitli xəstəliklərin spesifik və qeyri-spesifik desensibilizasiya metodları ilə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edir.

Gənc alim 1981-ci ildə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Dermatovenerologiya kafedrasında assisent vəzifəsində elmi və praktiki fəaliyyətə başlamışdır. Burada özünü yüksək ixtisaslı həkim, bacarıqlı elmi işçi və pedaqoq kimi təsdiq etmiş və bu keyfiyyətlərinə görə kafedraya rəhbər seçilmişdir.

C.Ağakişiyev kafedranın elmi-praktiki istiqamətinə uyğun olaraq keçmiş SSRİ EA Əmək Gigiyenası və Peşə Xəstəlikləri İnstitutu və D.İ.Mendeleyev adına Moskva Kimya Texnologiya İnstitutunun əməkdaşları ilə birgə eksperimental tədqiqatlar aparmış və əldə olunan nəticə və ixtiralara görə müəlliflik şəhadətnaməsinə layiq görülmüşdür.

Cəlal müəllim 1992-ci ildə Moskva şəhərində "Neftayırma sənayesi məhsullarının fəhlələrdə dəri patologiyasının yaranmasına təsiri və kompleks müalicə-profilaktika tədbirləri" mövzusunda uğurla dissertasiya müdafiə edərək, tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. Onun rəhbərliyi altında respublikamızın müxtəlif regionlarında irsi və nadir rast gəlinən dəri xəstəliklərinin araşdırılması və müalicəsinə dair maraqlı tədqiqat işləri aparılmış, dəri və zöhrəvi xəstəliklərinin terapiyasında təbii, qeyri-ənənəvi müalicə üsulları, fizioterapiya tətbiq olunmaqla yeni, daha səmərəli və proqressiv metodlar işlənib hazırlanmış və ilk dəfə olaraq hirudopunktura terminini tibb elminə gətirmiş və tibb zəlisindən istifadə etməklə müxtəlif mənşəli xəstəliklərin müalicəsində mühüm uğurlara nail olmuşdur.

C.Ağakişiyev respublikamızdan kənarlarda keçirilən konqres və simpoziumlarda dəfələrlə aktual mövzularda çıxışlar etmişdir. O, bir neçə sanballı monoqrafiya və ixtiraların müəllifidir. Səhiyyədə göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycan Respublikasının Əməkdar həkimi fəxri adına layiq görülmüşdür. Keçmiş SSRİ Tibb Elmləri Akademiyasının Venerologiya üzrə Elmi Şurası Plenumunun üzvü, Veneroloji xəstəliklərlə mübarizə aparan "SANAM" assosiasiyasının fəxri üzvü, 1994-cü ildə Nyu-York EA üzvü seçilmişdir. C.Ağakişiyev Bakı şəhər dermatovenerologlar cəmiyyətinin ilk yaradıcısı və sədri olmuşdur.



Azərbaycanda dermatovenerologiya elminin inkişafında özünəməxsus xidmətləri olan professor C.Ağakişiyev hazırda respublikamızda yüksək ixtisaslı kadrların hazırlanmasında səylə çalışır, gənc həkim-mütəxəssislərdən öz bilik və bacarığını əsirgəmir. Biz hazırda özəl "SANAM" klinikasının rəhbəri Cəlal müəllimə uzun ömür, cansağlığı, həyatda və yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**
**Şahvələd ƏLİYEV,**
**AMEA akademik H.Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, biologiya elmləri üzrə fəlsəfə doktoru.**